

**Kənan Hacı**

# Hacı İsgəndər

**Roman**

**(əvvəli ötən sayımızda)**

### Müəllifdən

*1918-ci ildə Qafqaz İslam Ordusu Nuru Paşanın komandanlığı altında Azərbaycanın azadlığı uğrunda savaşanda Hacı İsgəndər özünümüdafiə batalyonu yaradaraq ermənilərə qarşı döyüşüb misilsiz fədakarlıq göstərərək Nuru Paşa tərəfindən 'Xalq Qəhrəmanı' ordeni ilə təltif edilib. Bolşeviklər hakimiyyətə gəldikdən sonra Hacı İsgəndər daim təqib altında olub. Onu ölümdən o dövrdə Azərbaycana rəhbərlik etmiş Ruhulla Axundov xilas edib. 1937-ci il repressiyası zamanı Ruhulla Axundovla birlikdə Hacı İsgəndər də həbs edilib, həbsdə olduğu müddətdə ona erməni müstəntiqlər tərəfindən amansız işgəncələr verilib. Ağır işgəncələrə dözməyən Hacı İsgəndər həbsxanada vəfat etsə də, onun meyitini ailəsinə verməyiblər. Hacı İsgəndər məzarı olmayan qəhrəmanlarımızdandır. 'Hacı İsgəndər' romanı bu böyük türk kişisinin həyat və döyüş yolundan bəhs edir və bu mövzuda yazılan ilk romandır.*

*Hələ uzun illər bundan öncə Buzovna qəsəbəsinin axundu, ilahiyyatçı alim, şair Hacı Soltan Əlizadənin 'Azərbaycan dərvişləri və rövzəxanları' kitabında Hacı İsgəndər haqqında məlumata rast gəlmişdim. O zamandan fövqəladə iradəyə, qəhrəmanlıq xüsusiyyətlərinə malik olan bu şəxsiyyətin ömür yolu diqqətimi çəkmişdir. Nə vaxtsa onun haqqında irihəcmli əsər yazacağımı düşünmürdüm. Sonrakı illərdə onunla bağlı xeyli maraqlı faktlar əldə etdim və Hacı İsgəndərin Cümhuriyyət tariximizdə müstəsna rolu, igidliyi, mərdliyi, Nuru Paşa kimi bir sərkərdənin rəğbətini qazanması və faciəli taleyi məni bu əsəri yazmağa sövq etdi. Əlbəttə, bu əsər yazılmazdan öncə Hacı Soltanın təşəbbüsü ilə onun yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub, televiziya verilişlərində haqqında süjetlər gedib, tədbirlər keçirilib. Hacı İsgəndərin geniş xalq kütləsinə tanıdılmasında onun böyük xidmətləri olub. Bu romanın yazılması da Hacı İsgəndərin adının yaddaşlarda qalması üçün növbəti bir təşəbbüsdür. Düşünürəm ki, bu cür şəxsiyyətlər hər zaman xatırlanmalı, onların keçdiyi ömür yolu gələcək nəsillər üçün örnək olmalıdır. Əsəri yazarkən Cümhuriyyət tariximizlə bağlı çoxlu sayda kitablar oxudum, arxiv materiallarıyla tanış oldum, bu da mənə romanı yazmaqda yardımçı oldu. Bu roman tarixi sənədlər əsasında yazılsa da, hər halda bədii əsərdir və yazıçı təxəyyülündən geniş istifadə olunub.*

*Kitabın araya-ərsəyə gəlməsində böyük əməyi olan həyat yoldaşım, filologiya üzrə fəlsəfə doktoru İlhamə Hacıyevaya, Qafqaz Müsəlmanları İdarəsinin Xəzər rayonu üzrə qazisi, tədqiqatçı alim Hacı Soltan Əlizadəyə, Azərbaycan Yazıçılar Birliyinin Xəzər bölməsinin sədri, şair-qəzəlxan Arif Buzovnalıya xüsusi təşəkkürlərimi bildirirəm!*

***

***Hacı İsgəndər mütəkkəyə dirsəklənib müştüyünə keçirdiyi papirosu acgözlüklə sümürürdü, rəngi qaralmışdı, dişi bağırsağını kəsirdi. Onunla üzbəüz bardaş qurub oturmuş Namulla bəy də qəzəbli görünürdü. Qarşılarındakı çay çoxdan soyumuşdu. Namulla bəy tez-tez yerində qurcuxurdu.***

***- Hacı, mən deyəndə ki, bu bolşeviklərdən gözüm su içmir, sözümü qəribçiliyə salırduz. İndi gördün ki, başımıza nə oyun açırlar? İlana ağu verən bu nadürüstlərdir. Daşnakları silahlandırıb müsəlmanların üstünə qaldıran bolşeviklərdir. Bütün yüksək vəzifələrə erməniləri yerləşdiriblər, onlara tam səlahiyyət veriblər, şəhərdə, kənddə nə istəyirlər edirlər. Onlara gözün üstə qaşın var deyən yoxdur. Hər gün bədbəxt müsəlmanın qanını tökürlər. Buna nə qədər dözmək olar? Bəs bizim qeyrətimiz yoxdur? Bu əclafların burnunu ovmaq lazımdır.***

***Namulla bəy danışdıqca Hacı İsgəndərin içi qaynayırdı, fikrində aranı dağa, dağı arana daşıyırdı.***

- Düz deyirsən, Namulla bəy. Qanımıza susayıblar. Bu, köhnə siyasətdir. Quruluş dəyişsə də rus şovinizminin mahiyyəti dəyişməyib. I Pyotrun vəsiyyətnaməsini yadına sal. I Pyotr general-mayor Matyuşkinə tapşırıq vermişdi ki, "müsəlmanları ruslar tərəfindən zəbt edilmiş Azərbaycan torpaqlarından köçürüb əvəzində orada rusları, erməniləri, yaxud digər xristian xalqlarından olan adamları yerləşdirsin".Bolşeviklər də bu siyasəti yürüdürlər".Çar Rusiyası həmişə Azərbaycan türklərini cəhalət və qaranlıq içində saxlamağa çalışıb. Onlar yaxşı bilir ki, biz təhsil alıb elmlərə yiyələnsək, cəhalət və qaranlıqla döyüşəcəyik, öz haqlarımızı tələb edəcəyik. Biz müti olmamalıyıq, mübarizə aparmalıyıq. Qoy bizim gücümüzü görsünlər.

Namulla bəy qarşısındakı pürrəngi çaydan bir qurtum alıb dostunun fikirlərinə dəstək verdi:

***- Bizim silahımız yoxdur, Hacı. Olan-qalanımızı da əlimizdən alıblar. Erməniləri sürətlə silahlandırırlar. Bilirsən niyə? Müsəlmanları qırmaq üçün. Biz də öz əhalimizi silahlandırmalıyıq. O vaxt 'Difai' firqəsi elə buna görə yaranmışdı. Onda ruslar da, ermənilər də möhkəm qara-qorxuya düşmüşdülər. Ayağa qalxmasaq, ayaq altında qalacağıq.***

Birinci Rus İnqilabı nəticəsində, Rusiyanın ərazisində milliyətçi hərəkatlar fəallaşmışdı. İnqilab Qafqaza da təsir göstərmişdi. Dumada qurulmuş Müsəlman Fraksiyasını əsasən Azərbaycan- türk mənşəli siyasi xadimlər təmsil edir, Rusiya müsəlmanlarının problemlərini gündəmə gətirirdi. Azərbaycan türklərinin siyasətdə fəallığı çar hökumətini narahat edirdi. Azərbaycanlıların başını qatmaq üçün, çar hökuməti erməni ünsürünə al atdı. Rusiya, erməni daşnaklarını silahlandırır və onları Azərbaycan- türk əhalisinə qarşı yönəldirdi.




***Daşnaklar İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Gəncə, Bakı və Şirvanda yaşayan silahsız dinc Azərbaycan türklərinə hücum edir, vəhşiliklər törədir və onların mal-mülkünü qarət edirdilər. 1905-ci ilə qədər daha çox söz adamı kimi tanınan Əhməd bəy Ağaoğlu ermənilərin xəbis niyyətlərinin artıq siyasi təşkilatlar və silahlı dəstələr vasitəsilə həyata keçirdiklərini görərək adekvat qərar qəbul etdi. Zalımla öz dilində danışmaq lazım idi. Xalqı silahlandırmağa ehtiyac vardı. Xalq öz şərəf və namusunu silahla qorumalı idi. Bunun üçün də bir firqə ətrafında birləşmək zərurəti yaranmışdı. 'Difai' Partiyası bu zərurətdən yarandı.***

1912-ci il 16 mart tarixində Qafqaz canişinliyinin arxivindən tapılmış və hal-hazırda Bakıda yerləşən arxivdə mühafizə edilməkdə olan "Difai" Partiyasına məxsus Bəyannamədə deyilir: "Mütəşəkkil hərbi qüvvəyə malik, eyni zamanda, yəni silahlarla, hətta toplarla təchiz edilmiş Daşnak partiyası, bir tərəfdən silah gücünə bütün erməniləri, digər tərəfdən də Qafqaz hökumətini özünə tabe edib ən ümdə məqsədlərinə nail olmağa çalışır. Onların əsas məqsədləri Qafqazda yaşayan bütün müsəlmanları qırdıqdan sonra onların torpaqlarını işğal etməkdir. Ermənilər məqsədlərinə nail olduqdan sonra fikirləri Qafqazda erməni xalqı üçün milli, müstəqil bir dövlət yaratmaqdır. Bizim Partiyamızın əsas məqsədi Qafqazda yaşayan bütün xalqlar arasında səmimi qardaşlıq və birlik yaratmaqdır. Hərgah Daşnak Partiyası namus və səmimiyyətlə öz hərəkət və fəaliyyətlərinin həqiqi proqramını aşkar söylərsə, əgər bu proqram Qafqazda yaşayan bütün millətlərin azadlıq və müstəqilliyinə xələl gətirmirsə, o zaman biz öz birlik əlimizi həmişə ona uzatmağa hazırıq. Əksinə, əvvəllər olduğu kimi, müsəlmanların üzərinə xain və qəddarcasına hücumlar edərsə, bizdən layiqli cavab alar və Qafqaz başdan-başa, bitməz-tükənməz bir qanlı səhnə halinə düşər. Daşnak partiyası əmin olsun ki, heç bir vaxt biz öz millətimizin bədbəxtliyi üzərində erməni millətinin səadət və xoşbəxtlik qurmasına yol vermərik."

Beləliklə, Difai Partiyası bu Bəyannaməsi ilə Azərbaycan türklərinin, eləcə də, Qafqaz müsəlmanlarının "ölüm-qalım" mübarizəsini açıqca ortaya qoyaraq öz siyasi platformasını elan etmiş oldu. Sonrakı iş isə təşkilatdan asılı idi. Bu səbəbdən də Əhməd bəy Azərbaycanın vilayətlərini dolaşmağa başladı. İlk olaraq o, Azərbaycanın ikinci paytaxtı sayılan Gəncəyə yola düşdü. Gəncədə tanınmış vətənsevər millətçilərlə görüşərək orada "Difai" təşkilatını yaratdı. Ələkbər bəy Xasməmmədov və qardaşı Ələsgər bəy Xasməmmədov, doktor Həsən bəy Ağayev, Ələkbər bəy Rəfibəyli, Şeyxülislam Axund Molla Məhəmməd Pişnamazzadə, gimnaziyada din müəllimi işləyən Mirzə Məhəmməd Axundzadə, müəllim Mirzə Cavad, gənc müəllimlərdən İdris Axundzadə və başqaları Gəncədə təsis olunan "Difai" Təşkilat Komitəsinin üzvləri idilər.

***'Difai' Partiyası yaranmasaydı, ermənilər Bakıda və Azərbaycanın digər qəzalarında kütləvi şəkildə müsəlmanları qırıb tökəcəkdilər. Ermənilər yaşından və ictimai mövqeyindən asılı olmayaraq 'Daşnaksutyun' partiyasının ətrafında birləşmişdilər, onların külli miqdarda maddi vəsaiti, silahları, yaxşı təlim keçmiş və silahlı 'zinvorları' vardı. Yüksək cəmiyyətdən və hökumətdən olan üzvləri vasitəsilə azərbaycanlılarla ermənilər arasında münaqişələrin yatırılmasında hökumət orqanlarının sərəncamlarına təzyiq göstərir, bu yolla həmin sərəncamları öz mənafelərinin müdafiəsinə yönəltməyə nail olurdular.*** Rusiya onların silah, cəbbəxana və hər növ alət və ləvazimatlarla təchiz edilməsini təmin etdi. Rusiya hökumətinin bu siyasi dəyişikliyinə görə daşnak liderlər ailələrini də yanlarına alaraq Qafqaza dönməyə başladılar. Əvvəllər Bolqarıstanda olan Andronik də Tiflisdə Vorontsov-Daşkov ilə görüşərək quracağı erməni qüvvələri üçün minlərlə silah, sursat, pul yardımı aldı. Çarın əmrinə görə, ermənilərlə Rusiyanın Qafqaz BaşKomandanlığı arasındakı əməkdaşlıq sürətlə möhkəmləndi. Sazonov, Voronsov-Daşkova Qafqaz bölgəsində təşkil ediləcək erməni qrupların təlim-tərbiyəsi üçün 26 min tüfəng və 12 milyon mərmi göndərdi. İlk iş olaraq Qafqaz cəbhəsində türklərə qarşı vuruşmaq üçün ermənilər silahlanmağa başladılar. Ermənilərdən təşkil edilən bu hərbi dəstələrə rus ordusu tərkibində ciddi təlimlər keçilirdi.

"Difai" yaxşı təşkilatlanmış və silahlanmış "Daşnaksutyun"un müqabilində müdafiə təşkilatı kimi yaradılmışdı. Zəngəzur qəzası, Şuşa, Cəbrayıl və Cavanşir qəzalarının Qoloşşapov, Kleşşinski, Mitskeviç, Smorodski kimilərin rəhbərliyi altında "Daşnaksutyun" tərəfindən talan edilmiş hissləri ermənilərin əlinə keçmişdi. Minlərlə müsəlman kəndlilərinin evlərinə od vurulmuş, bu ailələr oradan qovulmuş, müflis vəziyyətdə Yelizavetpol quberniyasında sərgərdan gəzib dolaşır, heç yerdə nə sığınacaq tapır, nə müdafiə, nə qida, nə də yaşamağa bir yer tapırdılar.

Hacı İsgəndər xəyalən o ağır, məşəqqətli günlərə qayıtmışdı. O, alovlar içində bişmiş insan idi, "Difai" yarananda da sinəsini birinci irəli verənlərdən biri olmuşdu. Azərbaycan türklərinə düşmən kəsilmiş məmurların öldürülməsini birbaşa üzərinə götürən "Difai" hər belə qətldən sonra məsuliyyəti öz üzərinə götürməklə yanaşı, öz möhürü ilə bəyannamədə yayırdı. "Difai"nin möhürü Azərbaycan türkü üçün bir intiqam günəşinə, bu millətin qanını içməyə hazır olan yadelli məmurlar üçün isə ölüm hökmünə dönmüşdü.

***Hacı İsgəndər kütlələr üzərində hakim olmağı sevməzdi, amma sadə, dinc insanlara qarşı zorakılıq edənlərə qarşı qəddar və amansız idi. Qəhrəmanlıq üçün gərəkli olan bütün xüsusiyyətlər onda vardı. Heç bir şərt altında inancını itirməyən bir şəxs olduğundan nikbinliyi də romantik deyil, imandan qaynaqlanırdı. Hərbi təhsili olsaydı, sərkərdə məqamına yüksələ bilərdi. Hacı İsgəndərin bu iman və etiqadına, misilsiz şücaətinə döyüşlərdə şahidlik edənlər vardı. Onu yaxından tanıyan hər kəsin gəldiyi ümumi fikir bundan ibarət idi ki, Hacı İsgəndər bir insan olaraq mükəmməl əxlaqi dəyərlərə sahib idi.***

**(davamı gələn sayımızda)**